# Ömür payı – tale bəxşişi

**İnsan yaşadığı illəri göz önünə gətirdikcə dərk edir ki, ömür qısa, arzular isə sonsuzdur. Odur ki, aqil insanlar bu qısa ömür payından səmərəli istifadə edərək, Vətən və xalq yolunda faydalı bir iş görməyə, yaxşılıq etməyə, əl tutmağa, özündən sonra xoş iz qoymağa tələsirlər. Dəyərli ömür yaşamış Səlahəddin Quliyev də belə insanlardandır.**

Səlahəddin Məlik oğlu Quliyev 1958-ci il iyunun 13-də Goranboy rayonunun Safıkürd kəndində ziyalı ailəsində anadan olmuşdur. Onun ilk müəllimləri də elə öz valideynləri idi. Atası Məlik Quliyev tarix fənnini tədris edir, həm də rayon partiya komitəsində işləyirdi. Anası Münəvvər xanım Səlahəddinə 1-ci sinifdə dərs demişdi, onun ibtidai sinif müəllimi idi. Deyirdi ki, hiss etmişəm, onun gələcəyi işıqlıdır, Vətənə sədaqətli, el-obaya layiqli övlad olacaq. Səlahəddin də hələ uşaqlıqdan dərslərində çalışqanlığı, evdə isə işə can yandırması ilə ümidləri doğruldurdu.

Səlahəddin anasına çox bağlanmışdı. 2010-cu ilin soyuq fevral günləri anası Münəvvər xanım həyatla vidalaşdı. Onun yoxluğu Səlahəddinə çox ağır təsir etmişdi. O, anasız günlərlə barışa bilmirdi:

*Cənnət ətrini qoxlayım deyə,*
*Gözlərim üstündə saxlayım deyə,*
*Sənə lay-lay deyib ağlayım deyə,*
*Yerimi yanında salacam, ana.*

Çoxlarının onun şairliyindən xəbərsiz olduğu Səlahəddinin bütün şeirlərində anaya, Vətənə, insanlara İlahi sevgi var. Bəlkə elə bu sevgi onu bütün bəşəriyyətə, insanlara sevgi ruhunda formalaşdırmışdı. Elə valideynləri də onu bu ruhda böyütmüşdülər.

Səlahəddin 1975-ci ildə Goranboy rayonu 2 saylı orta məktəbi əla qiymətlərlə, 1974-cü ildə isə 1 saylı musiqi məktəbinin tar şöbəsini müvəffəqiyyətlə bitirmişdi.

Orta məktəbi bitirdikdən sonra bir müddət kolxozda çalışdı, ordu sıralarında xidməti borcunu yerinə yetirdi. 1985-ci ildə Bakı Slavyan Universitetini və daha sonra Maksim Qorki adına Dünya Ədəbiyyatı İnstitutunu bitirdi. Təhsil illərində "Bakı" və "Baku" axşam qəzetlərinin redaktoru Nəsir İmamquliyevin etimad göstərdiyi əməkdaşlarından idi. Ulu öndər Heydər Əliyev Moskvada işlədiyi və istefa verdiyi vaxtlarda onun haqqında sanballı yazılar yazır, təzyiq və təhdidlərə baxmayaraq, öz əqidəsindən dönmür, ulu öndərə müstəqilliyimizin ilk



illərində Azərbaycanı düşdüyü ağır vəziyyətdən çıxara biləcək yeganə qüvvə kimi baxırdı.

1993-cü ildə Səlahəddin müəllim daha bir cəsarətli addım atdı. Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyevi Azərbaycanda iqtidar uğrunda açıq və fəal mübarizəyə səsləyən, onun hakimiyyətə qayıdışı üçün müraciətə imza atan məşhur "91-lər"dən oldu. O, ümummilli liderin siyasi fəaliyyətə qayıdacağına inanır, ancaq onunla bir yerdə, çiyin-çiyinə işləyəcəyini heç ağlına da gətirmirdi. Günlərin birində onu, Prezident Aparatına çağırdılar. Ulu öndərin onu qəbul edəcəyini eşidəndə çox həyəcanlandı. Bu tarixi görüşdə Azərbaycan Respublikası Prezidentinin mətbuat xidmətinə rəhbərlik etmək ona həvalə olundu. Düz on bir il – 1993-cü ildən 2004-cü ilədək bu vəzifədə ləyaqətlə, alnıaçıq-üzüağ çalışdı. 2004-cü ildən ömrünün sonunadək isə "Respublika" qəzetinin baş redaktorunun müavini vəzifəsində işlədi.

Səlahəddin duyğulu, ləyaqətli insan idi. İmkansızlara əl tutmağı özünə mənəvi borc bilirdi. Az danışardı, etdiyi yaxşılıqları dilə gətirməzdi. Əliaçıq, alicənab, son tikəsini başqaları ilə bölüşən, polad əqidəli Səlahəddin Quliyev ona qarşı olan xəyanətlər, vəfasızlıqlar ilə barışmır, onları ürəyinə yük edirdi. Ölümü də elə ürəkdən oldu.

Səlahəddin Quliyev də bu qısa, lakin dəyərli ömrünü Azərbaycan dövlətinin müstəqilliyi naminə işıq saçanların sırasında keçirdi. Bu yol çətin, əziyyətli olsa da, şərəfli və məsuliyyətli idi. Çünki bu yolu istəməyən qüvvələr də az deyildi. Onları dəf etmək üçün isə mövcud əskikləri nizamlamaq bacarığı lazım idi. O, zehnindən – zəkasından xalqımızın gələcəyi üçün istifadə edənlərin cərgəsində dayanmışdı.

II Qarabağ müharibəsində həlak olmuş şəhidlərimizə həsr etdiyi "Qayıt gəl" şeirində sanki özünün ömrünü ölməzlərin ömrünə calayırdı:

*Heyif deyir, sızıldayır qohum, yad,*
*Qazanmısan el içində şöhrət, ad,*
*Mənasızdır sənsiz keçən bu həyat,*
*Darıxırıq səndən ötrü, qayıt gəl.*

Səlahəddin II Qarabağ müharibəsi dövründə çox həyəcanlı idi. Vətənimizin uğurları onu sevindirirdi. Odur ki, qələmini, sözün həqiqi mənasında, süngüyə çevirmişdi:

*İlhamın mərd igidləri,*
*Polad, Mübarizləri,*
*Qırdı düşmən siparini,*
*Qazandı zəfərləri.*
*Gəldi Şuşa qalasından qələbənin müjdəsi,*
*Bülənd oldu göy üzünə İlahi azan səsi.*

S.Quliyevin zəfər yolunda həmişə Azərbaycana mənəvi dayaq olan Türk dünyasını, türk qardaşlığını və Türkiyə dövlətinin başçısı Ərdoğanı vəsf edən şeiri də qəlbləri riqqətə gətirir:

*Könüllər fatehi, ürəklər şahı,*
*Şöhrəti obalar, ölkələr aşdı.*
*Bütün türk elinin arxa, pənahı,*
*Ümid çırağıdır, pirdi Ərdoğan...*

Səlahəddin Quliyev bir həqiqəti bilirdi ki, İrəvan Azərbaycanın tarixi torpağıdır. Axırıncı şeiri də "İrəvan Azərbaycandır!" adlanır:

*Türk adıdır, Türk soyludur,*
*Bütün küçələr, döngələr.*
*Təpəbaşı, məhəllələr,*
*Minarələr, məscidlər.*
*Minbərdən ucalan səslər,*
*Quran səsidir, azandır,*
*İrəvan Azərbaycandır!*

S.Quliyev "Məni sənsizliyə öyrətmə, gülüm", "Qədir gecəsinin mələyi" adlı kitabların, çox sayda hekayə və məqalələrin müəllifidir. Şeirlərinə mahnılar yazılmışdır. 2017-ci il noyabrın 18-də Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafındakı xidmətlərinə görə "Əməkdar jurnalist" fəxri adına layiq görülmüşdü.

Səlahəddin Quliyev 2022-ci il sentyabrın 9-da bu dünya ilə vidalaşıb, doğmalarını gözüyaşlı, xatirələrlə başbaşa qoydu. Allah ruhunu şad etsin!

***Q.PİRİYEV,***
***"Xalq qəzeti"***